# D.İ.MENDELEEVİN DÖVRİ QANUNUNUN KƏŞFİNİN 150 İLLİYİ İLƏ ƏLAQƏDAR OLARAQ ELEMENTLƏRİN DÖVRİ CƏDVƏLLƏRİNİN YARANMA TARİXİNƏ EKSKURSİYA VƏ ABBAS ÇAYXORSKİ HƏQİQƏTLƏRİ

**V.M.Abbasov, M.M.Abbasov, A.M.Tağıyeva, G.H.Əliyeva**

*AMEA Neft-Kimya Prosesləri İnstitutu*

Artıq Dövri qanunun kəşfindən 150 il keçir. Elmin inkişafında müstəsna rol oynayan bu qanun böyük rus alimi Dmitri İvanoviç Mendeleev tərəfindən 1869-cu ildə kəşf olunmuşdur. Dövri qanun elementlərin atomlarının nüvələrinin yükünün artması ilə xassələrinin dövri surətdə dəyişməsini xarakterizə edir. Dövri qanun belə ifadə olunur:

***"Kimyəvi elementlərin xassələri, həmçinin elementlərin birləşmələrinin forma və xassələri atom nüvələrinin yükünün qiymətindən dövri surətdə asılıdır".***

D.İ.Mendeleev o vaxt məlum olan elementlərin xassələrini və onların atom çəkilərini müqayisə edərkən qanun kəşf edib. "Rus kimya cəmiyyəti jurnalı"nda (1869, T.1) çap olunmuş ***"Xassələrin elementlərin atom çəkiləri ilə nisbəti"*** adlı məqalə aşağıdakı əhəmiyyətli nəticəyə malik idi: "Atom çəkilərinin qiymətinə görə düzülmüş elementlər xassələrin aydın dövriliyini ifadə edir". 1871-ci ildə "Kimyanın əsasları"nın 1-ci nəşrində (2-ci hissə, s. 941) Mendeleev dövri qanunu daha dəqiq ifadə edir: ***"Elementlərin onların əmələ gətirdikləri bəsit və mürəkkəb cisimlərin xassələrində ifadə olunan fiziki və kimyəvi xassələri onların atom çəkilərindən dövri asılılıqdadır".***

Atomun nüvə modeli işləndikdə və dövri sistemdə elementin sıra nömrəsinin atomunun nüvəsinin yükünə (Z) uyğun gəldiyi təcrübi sübut edildikdə (1913-cü il) dövri qanun fiziki əsaslandırma əldə etdi.

Atomun kvant nəzəriyyəsi çərçivəsində göstərilib ki, Z artdıqca atomların xarici elektron təbəqələrinin quruluşu dövri olaraq təkrarlanır ki, bu da kimyəvi elementlərin xassələri və spesifikasını müəyyən edir.

**Dövri qanunun xüsusiliyi:** analitik şəkildə (tənliklər və ya tənliklər sistemi şəklində) ifadə olunmur. Kimyəvi elementlərin təsnifatı zamanı dövri qanun özünə məxsus "matrisa" formasında – ***kimyəvi elementlərin dövri sistemi şəklində ifadə olunur.***

Dövri qanun bütün Kainatda fəaliyyətdə olan fundamental təbiət qanunudur.

## Kimyəvi elementlərin tədqiqinin əhəmiyyətli mərhələləri

Kimyəvi element anlayışını ilk dəfə olaraq fransız kimyaçı Antuan Loran de

Lavuaze ifadə edib (Robert Boylun ideyasını inkişaf etdirərək). Bu, 1789-cu ildə olub. Lavuaze fiziki proseslərin gedişində sonrakı parçalanmalara məruz qalmayan maddəni kimyəvi element adlandırıb. Lavuaze kimyəvi element roluna uyğun gələn 33 maddə seçib və onları da öz növbəsində 4 qrupa bölüb: metallar, qeyri-metallar, torpaqlar və qazlar. Bu elementlərdən bəziləri kimyəvi birləşmələr idi, bir neçəsi, məsələn, istilik və işıq ümumiyyətcə maddə deyildi. Lavuazenin tərtib etdiyi kimyəvi elementlərin siyahısı belədir (həqiqətən kimyəvi element olanlar rəngli verilib):

- qazlar: istilik törədən çəkisiz, işıq, **hidrogen, azot, oksigen;**
- torpaqlar: gilli torpaq, barit, əhəng daşı, maqnezium oksid, silisum oksid;
- metallar: **stibium, bismut, kobalt, mis, qızıl, dəmir, qurğuşun, manqan, civə, molibden, nikel, platin, gümüş, qalay, volfram, sink;**
- qeyri-metallar: **kükürd, fosfor, karbon,** muri radikalı, flüorit radikalı, bor radikalı.

Bütün “torpaqlar” oksidlər idi (məsələn, sönməmiş əhəng – kalsium oksid, silisiumlu torpaq – silisium dioksid), amma Lavuazenin zamanında bu birləşmələrdən oksigen atomlarını azad etmək imkanı yox idi və həmin kimyəvi elementləri ayırmaq da mümkün deyildi. Bundan əlavə, elə bu səbəbə görə də qeyri-metallar qrupuna elə maddələr daxil edilmişdi ki, kimyəvi elementlərə aid deyildilər: Lavuazenin ixtiyarında olan resurslardan istifadə edərək radikallardan xlor, flüor və boru ayırmaq mümkün deyildi.

Kimyəvi elementlərin tədqiqatında növbəti mərhələ ingilis təbiət elmləri üzrə pedaqoq, Mançesterdə işləmiş Con Daltonun adı ilə bağlıdır. 1805-ci ildə Mançester ədəbiyyat və fəlsəfə cəmiyyətinin diqqətinə çatdırılan məqalədə və mühazirələrdə Dalton elementlərin bir-biri ilə birləşməsinin müxtəlif üsullarını təsvir etməyə cəhd göstərib. O, ehtimal edib ki, bu zaman hansısa baza inqredientləri (konkret kütləyə malik) qarşılıqlı təsirdə olur. O günlərin əksər kimyaçıları düşünüb ki, atomlar onları öyrənmək üçün çox kiçikdirlər, amma bu, Daltonu dayandırmayıb. O, 20 elementdən ibarət cədvəl təklif edib, hər bir elementin kütləsini göstərib, həmçinin onların simvolik yazılma qaydasını təklif edib ki, bu da onların birləşmə qaydasını əks etdirib. Maddələr elementlərin simvolik işarələrindən ibarət olan kiçik sxemlərlə təsvir olunub. Bu elementlərin baza siyahısından birləşmələr almaq olardı: 21 nömrəli su idi və HO kimi ifadə olunurdu. 22 nömrə ammonyaka aid idi və NH kimi yazılırdı. Belə yazılar əsas oldu ki, onların da üzərində bizə yaxşı məlum olan kimyəvi formullar ideyası inkişaf etdi. Daltonun təklif etdiyi işarə forması kifayət qədər mürəkkəb idi və geniş nüfuz qazanmadı. Müasir kimyəvi işarələri Daltonun işlərinə heyran olmuş isveç kimyaçısı Yens Bertselius 1813-cü ildə kimyaya gətirib. O, qeydiyyatın daha sadə üsulunu istifadə edib, element adının birinci hərfi ilə (bəzən – latınca, kaliumda isə – ərəbcə) və ya əgər ikimənalılıq yaranırdısa ilk iki hərflər (məsələn,

C karbon üçün, Co kobalt üçün) yazılırdı. Bu simvolları ardıcıl yerləşdirmək asan idi və bununla da kimyəvi birləşmə təsvir olunurdu, məsələn, $H_2O$ – su. Belə formullar təxminən 1835-ci ildən sonra geniş istifadə olunmağa başladı.

Bir-birinin ardınca yeni elementlər kəşf olundu. Lavuaze "Torpaqları"nı onun elementar tərkib hissələrinə ayırmaq mümkün oldu, bunu elektrolizin köməyi ilə Hemfri Devi etdi. 1863-cü ilə qədər artıq 60-dan çox element məlum idi və belə sual meydana çıxırdı: bu artan çoxluqda sərhədlər varmı və əgər varsa bu sərhədlər nədir, hansı faktorlar onları təyin etməlidir?

XIX əsr boyu təsnifatın yaradılmasına qəhrəmancasına cəhdlər edilirdi və bu təsnifatlar elementlərin kütləsinə görə onların xassələrini öncədən söyləməyə imkan verərdi. Bu məsələni o dövrün əksər aparıcı kimyaçıları həll etməyə cəhd göstərmişdilər. Amma onların hamısını demək olar ki, heç kimə məlum olmayan, əslən Sibirdən olan rus professor – Dmitri İvanoviç Mendeleev qabaqladı.

## Kimyəvi elementlərin dövri sistemi

Kimyəvi elementlərin dövri sistemi – kimyəvi elementlərin təbii təsnifatı olub, kimyəvi elementlərin dövri qanununun qrafik (cədvəl) formasında ifadəsidir.

Dövri sistemin təkamülü üçün sistemdə qrupun və dövrün nömrəsi ilə müəyyən olunan elementin yeri əhəmiyyətli oldu. Mendeleev belə nəticəyə gəldi ki, bəzi elementlərin atom kütlələrini dəyişmək lazımdır: uranın, indiumun, seriumun və onun sputniklərinin. Bu, dövri sistemin ilk praktiki tətbiqi idi. Mendeleev həmçinin ilk dəfə olaraq bir neçə naməlum elementlərin mövcudluğunu qabaqcadan söyləmişdi. Alim ekaalüminiumun (gələcək qalliumun), ekaborun (skandiumun) və ekasilisiumun (germaniumun) əhəmiyyətli xassələrini təsvir etmişdi. Bundan əlavə, o, manqanın analoqlarının (gələcək texnesium və reniumun), tellurun analoqunun (polonium), yodun analoqunun (astatın), seziumun analoqunun (fransiumun), bariumun analoqunun (radiumun), tantalın analoqunun (protaktiniumun) mövcudluğunu qabaqcadan söyləmişdir. Alimin bu elementlər haqqında proqnozları ümumi xarakter daşıyırdı, çünki bu elementlər dövri sistemin az öyrənilmiş sahələrində yerləşirdilər.

Dövri sistemin ilk variantları çox cəhətdən yalnız emprik ümumiləşdirmə idi. Axı dövri qanunun fiziki mahiyyəti aydın deyildi, elementlərin xassələrinin atom kütlələrinin artmasından asılı olaraq dövri dəyişməsinin səbəbinin izahı yox idi. Bununla əlaqədar olaraq çox problemlər həll olmamış qalırdı. Dövri sistemin sərhədləri varmı? Mövcud elementlərin dəqiq miqdarlarını müəyyən etmək olarmı? Altıncı dövrün quruluşu aydın olmayaraq qalırdı – nadir torpaq elementlərinin dəqiq sayı neçədir. Məlum deyildi ki, hidrogen və litium arasında başqa elementlər varmı, birinci dövrün quruluşu necədir. Odur ki, dövri qanunun fiziki əsaslandırılmasına qədər və dövri sistem nəzəriyyəsi işlənənə qədər onda dəfələrlə ciddi çətinliklər yarandı. 1894-1898-ci illərdə təsirsiz qazların kəşfi

gözlənilməz oldu və belə çıxırdı ki, onlara dövri sistemdə yer yox idi. Bu çətinlik dövri sistemin quruluşuna sərbəst sıfır qrupunun daxil edilməsi ilə aradan qalxdı.

XIX və XX əsrlərin qovşağında radioelementlərin kütləvi kəşfi (1910-cu ilə qədər onların sayı 40-a çatdı) onların dövri sistemdə yerləşdirilməsinin vacibliyi və onun mövcud quruluşu arasında kəskin ziddiyyətə gətirib çıxardı. Altıncı və 7-ci dövrlərdə onlar üçün cəmi 7 vakant yer qalmışdı. Bu problem yerdəyişmə qaydasının müəyyən edilməsi və izotopların kəşfi ilə həll edildi. Dövri qanunun fiziki mahiyyətinin və dövri sistemin quruluşunun izah oluna bilməməsinin başlıca səbəblərindən biri ondan ibarət idi ki, atomun quruluşu məlum deyildi. Dövri sistemin inkişafı yolunda əhəmiyyətli pillə E.Rezerford tərəfindən atom modelinin yaradılması oldu (1911-ci ildə). Onun əsasında holland alim A.Van den Bruk (1913-cü il) belə ehtimal irəli sürdü ki, dövri sistemdə elementin sıra nömrəsi onun atomunun nüvəsinin yükünə (Z) bərabərdir. Bunu 1913-cü ildə təcrübi olaraq ingilis alim Q.Mozli təsdiq etdi. Dövri qanun fiziki əsaslandırma əldə etdi: elementin xassələrinin dövri dəyişilməsi atom kütləsinin dəyişməsinə görə yox, elementin atomunun nüvəsinin yükünün dəyişməsindən asılı olaraq baxıldı.

Nəticədə dövri sistemin quruluşu xeyli möhkəmləndi.

Qeyd edək ki, alman kimyaçı Yulius Lotar Meyer 1864-1870-ci illərdə atom kütlələrinin qiymətlərinə və valentliyə uyğun olaraq elementlərin düzülməsi ilə kimyəvi elementlərin cədvəllərinin bir neçə variantını təklif etmişdi: qruplar ayırmışdı ki, qruplarda elementlərin analoji kimyəvi və fiziki xassələri dövri intervallarla təkrar olunurdu. Xüsusi halda, elementlərin atomlarının həcmlərinin onların atom kütlələrindən qrafik asılılığını tərtib etmişdi (Meyer qrafiki). D.İ.Mendeleevdən fərqli olaraq o, elementlərin atom kütlələrinin düzəldilməsinə cəhd etməmiş və hələ kəşf olunmamış elementlərin mövcudluğunu qabaqcadan söyləməmişdir. Dövri qanun üzrə işlərin tanınması əlaməti olaraq London kral cəmiyyəti 1882-ci ildə Meyerə D.İ.Mendeleev ilə eyni zamanda Qızıl Q.Devi medalı vermişdi.

Dövri sistemin quruluşunun fundamental prinsipi onun qruplara və dövrlərə bölünməsidir. Elementlərin sırasının Mendeleev tərəfindən nəzərdə tutulmuş anlayışı indi istifadə olunmur, çünki fiziki mahiyyətdən məhrumdur. Qruplar da öz növbəsində əsas (a) və əlavə (b) yarımqruplara bölünür. Hər yarımqrupda kimyəvi analoqlar olan elementlər yerləşir. Qələvi metallarla başlayan, təsirsiz qazlarla qurtaran elementlər məcmusu dövr adlanır (birinci dövr xüsusi haldır). Hər dövr ciddi olaraq müəyyən sayda elementə malik olur. Dövri sistem 8 qrupdan və 7 dövrdən ibarətdir.

Birinci dövrün xüsusiliyi ondan ibarətdir ki, cəmi 2 elementə malikdir: hidrogen və helium. Sistemdə hidrogenin yeri birmənalı deyil.

Kimyəvi elementlərin müasir dövri sisteminə 100-dən çox kimyəvi element

daxildir. Daha çox ağır elementlər nüvə sintezi ilə alınıb. Atomlarda energetik səviyyələrin elektronlarla dolma qaydası "quruluş prinsipi" adlanan qaydalar məcmusu ilə müəyyən edilir: atom orbitallarının (AO) dolması orbitalların enerjisinin artması qaydası ilə baş verir: ***1s, 2s, 2p, 3s, 3p, 4s, 3d, 4p, 5s, 4d, 5p, 6s, 4f, 5d, 6p, 7s, 6d və s.;*** Pauli prinsipinə uyğun olaraq hər bir AO (n, *l*, m kvant ədədləri ilə xarakterizə olunur) 2-dən çox elektrona malik ola bilməz; eyni *l* və n-ə malik AO elə dolur ki, elektronların spinlərinin cəmi maksimum olsun (başqa sözlə, müxtəlif m-ə malik maksimum sayda AO Hund qaydasına uyğun olaraq dolur).

(n+*l*) – Kleçkovski qaydasına uyğun olaraq elektron konfiqurasiyalarının yaranması başlıca olaraq (n+l) cəminin ardıcıl olaraq artmasına uyğun şəkildə baş verir. Bu zaman hər bir belə cəm hədlərində əvvəlcə böyük l və ən kiçik n-ə malik yarımsəviyyə dolur, sonra isə kiçik l-ə və böyük n-ə malik olur.

Kimyəvi elementlərin dövri sesteminin 500-dən çox variantının olması onun strukturunun bəzi xüsusi probleminin həllinə cəhdlərlə əlaqədardır. Kimyəvi elementlərin dövri sisteminin iki cədvəl forması daha geniş yayılıb: qısa və uzun (D.İ.Mendeleev tərəfindən hazırlanıb və 1905-ci ildə A.Verner tərəfindən təkmilləşdirilib).




***20 elementin kütlələri nəzərə alınmaqla təsnifatı. 1805-ci ildə Con Dalton tərəfindən təklif olunub.***

Dövri sistemin nəzəriyyəsi XX əsrin 20-ci illərində N.Bor və digər alimlər tərəfindən işlənib hazırlanıb və atomların elektron konfiqurasiyalarının formalaşmasının real sxeminə əsaslanıb. Bu nəzəriyyəyə uyğun olaraq Z-in artması ilə elektron səviyyələrinin və yarımsəviyyələrinin dolması aşağıdakı ardıcıllıq ilə baş verir:

**Dövrlərin nömrələri**

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 1s | 2s2p | 3s3p | 4s3d4p | 5s4d5p | 6s4f5d6p | 7s5f6d7p |

Dövri sistem nəzəriyyəsinə əsasən dövrə aşağıdakı tərifi vermək olar: ***dövr dövrün nömrəsinə bərabər n-ə və l=0 (s-elementləri) elementi ilə başlayan və eyni n-ə və l=1-ə (p-elementləri) malik element ilə qurtaran elementlərin məcmusudur.*** Yalnız birinci dövr müstəsnalıq təşkil edir, bu dövr yalnız 1s-elementlərinə malikdir. Dövri sistem nəzəriyyəsindən dövrlərdəki elementlərin sayı da çıxır: 2, 8, 8, 18, 18, 32, ...

Kimyəvi elementlərin dövri sistemi cədvəlinin orijinal variantlarından birini görkəmli sovet alimi SSRİ-nin ilk buraxılış radiokimyaçılarından biri olan professor, əslən azərbaycanlı Abbas Çayxorski tərtib edib.

Hələ 1970-ci ildə o, SSRİ Elmlər Akademiyasının "Radioximiya" jurnalında (T.12, buraxılış 4-6, səh. 801-809) "D.İ.Mendeleevin dövri sisteminin bəzi qanunauyğunluqları və olduqca ağır elementlərin kimyəvi xassələrini öncədən söyləmək haqqında" adlı məqaləni nəşr etdirib.

Qeyd edək ki, Abbas Çayxorski 2004-cü ildə ABŞ-dan Bakıya qonaq gələrkən AMEA-nın akademik Y.H.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutunda o vaxt İnstitutun laboratoriya müdiri və AMEA-nın müxbir üzvü olmuş, hazırda İnstitutun direktoru olan akademik Vaqif Abbasovun qonağı olmuş və kimyəvi elementlərin dövri cədvəlinin özünün təklif etdiyi yeni variantı haqqında kitabının əlyazmasının rus və ingilis versiyalarını təqdim etmişdir. Akademik V.M.Abbasov kitabın əlyazmasını Azərbaycan dilinə tərcümə etmişdir. O vaxt Abbas Çayxorski nəşriyyat səviyyəsi ilə razılaşmadığından kitabın nəşrinə icazə verməmişdi.

O, 2009-cu ildə ABŞ-da vəfat etməmişdən əvvəl vəsiyyət etmişdi ki, onun nəşinin külünü Bakıda, köhnə qəbristanlıqda bastırsınlar və onun vəsiyyəti icra olunub.

Hazırda onun kitabı akademik V.M.Abbasov tərəfindən üç dildə olmaqla nəşrə hazırlanır.

## YAXŞI TANIMADIĞIMIZ AZƏRBAYCAN ALİMİ – ABAS ÇAYXORSKİ

Hörmətli oxucu! Biz, çox təəssüf ki, bəzən öz dahilərimizi yaxşı tanımırıq, bəzən də onları adiləşdiririk. Bizim bu sahədə başqa xalqlardan öyrənəcəyimiz çox şey var. Bəzən dahilər yaşadığı zamanda Dahi kimi qəbul olunmur, amma sonradan onların dahilik zirvəsi qəbul olunur, tarixin yaddaşına həkk olunur. İstərdim ki, biz dahi və müdriklərimizi zamanında tanıyaq, onları sevək, gənclərə örnək edək. Əgər "adi" alim xalqın düşünən beyni adlandırılırsa, onda dahilər və

müdriklər bütün dünyanın beyni, gələcəyinə nur saçanı, sivillik səviyyəsini ucaldan şəxsiyyətlər kimi qəbul edilməlidirlər.

Belə dahilərdən biri də çoxumuzun hələ yaxşı tanımadığımız, amma dünyanın çoxdan qəbul etdiyi kimya elmləri doktoru, professor Abas Abas oğlu Çayxorskidir. Onun tərcümeyi-halından bəzi qeydlər.

Abas Çayxorski 1917-ci il yanvraın 21-də İrəvan quberniyası Basarkeçər rayonunun Çaxırlı kəndində anadan olub. 2004-cü ilin aprelində o, Bakıda olarkən "Azərbaydjanskie İzvestiya" qəzetinin müxbiri Tünzalə Qasımova ondan müsahibə almış və bu müsahibəni qəzetin 2004-cü il 3 aprel tarixli nömrəsində dərc etdirmişdi. Həmin müsahibənin tərcüməsini təqdim etməyi məqbul saydım. Bu müsahibə onun nə qədər yüksək səviyyəli alim və bir o qədər də sadə insan olduğunu göstərir.

***- Abas müəllim, belə alınıb ki, biz burada, Azərbaycanda sizin haqqınızda əvvəllər heç nə eşitməmişik (sizin kolleqalarınızı – kimyaçıları nəzərdə tutmuram). Nə üçün?***

*- Qorxuram ki, bunu izah etmək çətin olsun. Amma əgər qısa desəm, mən bütün həyatım boyu atom sənayesində işləmişəm, bu da qapalı sahədir. Elə şeylər var ki, onların barəsində heç indi də danışa bilmərəm.*

***- Gəlin mümkün olanlar haqqında danışaq. Xahiş edirəm, öz haqqınızda da danışın. Harada doğulmusunuz, harada oxumusunuz, nə zaman Azərbaycanı tərk etdiniz?***

*- 1917-ci il yanvarın 21-də İrəvan quberniyasının Basarkeçər qəzasında anadan olmuşam. Hələ mənim bir yaşım olmamış məlum hadisələr zamanı bizim ailəmiz bir çox başqaları kimi erməni təqiblərindən qaçmaq məcburiyyətində qalmışdır. Azərbaycanda biz müxtəlif rayonlarda yaşadıq – Ağdamda, Göyçayda, Ağdaşda.*

*Böyük Vətən müharibəsində iştirak etdim, orden və medallarla təltif olundum, o cümlədən III dərəcəli Şöhrət və I dərəcəli Böyük Vətən müharibəsi ordenləri ilə, ciddi yara aldım, II dərəcəli Böyük Vətən müharibəsi əliliyəm. 1946-cı ildə SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Leninqrad Dövlət Universitetinin dördüncü kursuna keçirildim – yenicə açılmış radiokimya bölməsinə.*

***- Bir dəqiqə, Abas müəllim, bəs birinci üç kurs? Siz Bakıda oxuyurdunuz?***

*- Hə, mən bunu demədim axı. Məni cəbhəyə Universitetdən çağırdılar. Mən ADU-nun kimya fakültəsində oxuyurdum. 1941-ci ildə ikinci kursdan sonra məni əvvəlcə zenit-artilleriya məktəbinə göndərdilər, sonra isə ön cəbhəyə. Yeri gəlmişkən, məktəbi qurtaranda mənə leytenant rütbəsi verdilər, amma sənədi verməyə imkan tapmadılar və söz verdilər ki, ardımca göndərəcəklər. Sənədi gözləyərkən baş serjant rütbəsi verdilər. Kağız isə məktəbdən gəlib çıxmadı. Bilirsiniz, müharibədə hər şey olurdu. Üçüncü Belarus cəbhəsinin tərkibində*

*Prussiyanın özünə qədər getdim, Kenniqsberqin alınmasında iştirak etdim. Artıq müharibənin sonunda, onun qurtarmasına bir neçə ay qalmış xüsusi tapşırığı yerinə yetirərkən yaralandım. Hospitaldan sonra Bakıya, evə məzuniyyətə göndərdilər, sonra da müharibə qurtardı.*

***- Və siz təhsili davam etdirdiniz?***

*- Hə, üçüncü kursa köçürdülər. Mən çox aktiv idim, idmanla: gimnastika, alpinizmlə məşğul olurdum. Orta Asiya zirvələrinə qalxdım, motosiklet yarışçıları hazırlayırdım. Bu vaxt Sovnarkomun qərarı ilə Leninqrad Dövlət Universitetinə (LDU) köçürüldüm. Mənim idman rəhbərlərim etiraz etmək istədilər, amma faydası olmadı.*

***- Əgər bu köçürmə olmasaydı? Ola bilərdimi ki, siz elmə gəlməyə bilərdiniz? Ola bilsin ki, idman xadimi olardınız?***

*- Yox, idman yalnız məşğuliyyət idi. Məni onda da elm cəlb edirdi, yaxşı oxuyurdum, Stalin təqaüdçüsü idim, o səbəbdən də məni Leninqrada göndərmək üçün qrupa daxil etdilər – biz dörd adam idik.*

*Yox, mən özümü elmdən kənar təsəvvür etmirdim.*

***- Abas müəllim, sovet nüvə tədqiqatları tarixi haqqında bu yaxınlarda aşağıdakıları oxudum: "SSRİ atom sənayesinin formalaşmasında LDU-nun kimya fakültəsinin radiokimya bölməsinin məzunları görkəmli rol oynamışlar". Siz belə qiymətlə razısınız?***

*- Yox, mənə yaxşı deyil nəsə deyim, çünki mən də bu məzunların arasındayam, belə çıxar ki, mən özüm-özümü tərifləyirəm. Amma ümumiyyətlə, o bölmə elə bu məqsədlə də yaradılmışdı.*

*Məncə, aydındır. Ölkədə radiokimya kafedrası LDU-da 1945-ci ilin sonunda "Xirosimadan bir neçə ay sonra açıldı. Öz atom bombasını yaratmaq üçün təkcə sovet elminin bütün gücü atılmamışdı. Bütün dövlət demək daha doğru olar. Təbiidir ki, yeni peşənin mütəxəssisləri lazım idi və yeni bölməyə SSRİ-nin bütün aparıcı ali məktəblərindən ən yaxşı tələbələri seçirdilər.*

***- ADU da onların arasında idi?***

*- Bəs necə, xüsusən bizim kimya məktəbinin nüfuzu çox yüksək idi. Ancaq görün necə adlar var idi – Yusif Məmmədəliyev, Həbib Şaxtaxtinski. Onlar, həqiqətən də, böyük alimlər, bizim pedoqoqlarımız, ADU-nun müəllimləri idilər. Bax, beləliklə, 1947-ci ildə yeni bölmənin ilk buraxılışı oldu, 40-a yaxın adam. Bizim hamımız ixtisasımız üzrə təyinat aldıq – hərə bir yerə. Mən həyat yoldaşım Yevgeniya ilə birlikdə - biz bir qrupda oxuyurduq - sonra da bütün ömrümüz boyu atom sənayesində bir yerdə işlədik – "Çelyabinsk-40"-a (indi Ozersk şəhəri) göndərildik. Orada İqor Vasilyeviç Kurçatovun rəhbərliyi altında, təkcə SSRİ-də yox, həm də Avropa və Asiyada ilk uran-qrafit reaktoru yaradılırdı. Məlum olduğu kimi, bu reaktor bir il sonra – 1948-ci ildə işə salındı, 1949-cu il avqustun 29-da isə Semipalatinsk sınaq poliqonunda gücü 20 kiloton trotil ekvivalenti olan*

*ilk plutonium atom bombasının ilk partlayışı aparıldı.*

***- Qəribə deyilmi ki, Sovet atom bombasının yaradılmasında ən aktiv şəkildə bakılılar – Landau, siz, Kurçatov (onu da qismən yerlimiz hesab etmək olar, çünki o, həyatı boyu dəfələrlə bizim şəhərimizlə əlaqəli olub) iştirak etmişlər?***

*- Məni heç cür atom bombasının yaradıcıları sırasına aid etmək olmaz. Gənc alim, dünənki məzun mən radioaktiv elementlərin kimyəvi xassələrini öyrənən qrupa daxil edildim və ciddi desəm, Kurçatovun apardığı işlərlə birbaşa əlaqəli deyildim. Amma tale məni bu dahi alimlə birbaşa əlaqələndirdi. Məsələ belə olmuşdu. Elmi və texniki təfərrüatlara getməyəcəyəm. Ancaq onu deyim ki, aparılan tədqiqatlar üçün, mənə xüsusi vakuum qurğusu lazım idi. Mən onun cizgilərini çəkdim və mühəndis-texniki xidmətə verdim. Orada isə baxdılar və başlarını tutdular, çünki onun hazırlanmasına az məsrəf tələb olunmurdu. Təbii ki, xidmətin rəhbəri Kurçatovun yanına qaçır ki, necə olsun? O isə cizgilərə baxır və müəllifi çağırmağı tələb edir. Təsadüfən mənim laboratoriyam Kurçatovun kabineti ilə üzbəüz idi və onun qəbul otağının qarşısında iki iri bədənli polkovnik növbə çəkirdi. Mən gedirdim və düşünürdüm: indi vəzifə səlahiyyətlərimi aşdığım üçün məni necə lazımdı tənbeh edəcək. İqor Vasilyeviç isə məni otuzdurdu, cihazın quruluşu və onun nə üçün lazım olduğu haqqında hərtərəfli soruşdu. Aydın oldu ki, birbaşa reaktorun öz işi ilə əlaqəli problemlərin həlli üçün də xüsusi vakuum qurğusu lazımdır. Onun yaradılmasında çətinliklər yaranmışdı. Burada mənim çertyojum yerinə düşmüşdü. Kurçatov gözləmədən Moskvadan konstruktorlar qrupu çağırdı ki, onlar da onun işlənməsi ilə məşğul oldular və onlar cihazı mənim çertyojum əsasında başa çatdırdılar, İqor Vasilyeviç isə artıq məni öz diqqətindən uzağa buraxmadı.*

***- Abas müəllim, "Çayxorski portveyni" ilə bağlı tarixcə nədir?***

*- Əslində, siz bildiyiniz kimi, mən heç bir portveynlə məşğul olmamışam, baxmayaraq ki, Çaxırlı kəndində doğulmuşam. Bu hadisənin özünə isə ön söz lazımdır. Haradasa 1947-ci ildə ABŞ-da atom reaktorunun güclü dağılması baş verdi ki, o, Manxetten fəlakəti adlandırılmışdı. Səbəblər haqqında yalnız o məlum idi ki, partlayış reaktorun qrafit təbəqəsinin dağılması nəticəsində baş verib. Bizim reaktorlar da uran-qrafit tipində olduqlarından sovet atomçularına olduqca əhəmiyyətli idi ki, bu prosesin hansı şəraitdə yarandığını tapsınlar. Problemin öyrənilməsi ilə sahənin bütün aparıcı mütəxəssisləri məşğul olurdular. İqor Vasileviç mənə də bu işə qoşulmağı tapşırdı və həmin vaxt "Çelyabinsk-40"-da laboratoriya müdiri idim.*

*Müxtəlif şəraitlərdə istifadə olunmuş qrafit nümunələri aldıq. Qərara aldıq ki, onları nitrat və xlorid turşusunun qarışığında kimyəvi təsirə məruz qoyaq. Kolbalara yerləşdirdik, üzərinə məhlul tökdük və gündəlik işimizlə məşğul olmağa başladıq. Birdən əməkdaşım qaçaraq dedi: "Abas Abasoviç, baxın, qrafit ilə nəsə*

*baş verir". Mən yaxınlaşıram və görürəm ki, bir neçə nümunə məhlulda şəklini dəyişib, qırmızı-qəhvəyi rəng alıb, sanki həqiqi portveyn kimi. Sonrakı tədqiqatlar göstərdi ki, mövcud olan belə tip istismar rejimli reaktorlarda qrafit daima şüaların təsirinə məruz qalaraq müəyyən müddətdən sonra kritik həddə çatır. Həmin həddə çatmamış o mütləq dəyişdirilməlidir.*

*Nəticələr haqqında Kurçatova dedikdə, o, geniş iclas çağırdı. Həmin iclasda bizim nümunələrimiz qoyulmuşdu və onları sonradan öz aralarında "Çayxorski portveyni" adlandırdılar. Əgər yoxlama müqayisələrində şübhə yaranırdısa, onlara istinad edirdilər: "İcazə verin, bəs "Çayxorski portveyni?"*

*İqor Vasilyeviç qəribə şəxsiyyət idi, təkcə dahi alim deyildi, həm də gözəl insan idi. Onun üçün adamları, xüsusən də əməkdaşları qiymətləndirməkdə heç bir fərq yox idi. Ona tamamilə fərqi yox idi ki, sən qocasan və ya cavansan, sənin milliyyətin nədir. Başlıcası odur ki, sən işçi və alim kimi hansı dəyərə maliksən. Onun həyatdan getməsi mənim üçün ağır itki idi.*

***- Siz əks münasibətlərlə də rastlaşmışdınız?***

- Olurdu.

***- Axı sizə atom enerjisinin dinc məqsədlərlə istifadəsi üzrə SSRİ Dövlət Komitəsində elmi rəhbər kimi, birinci dərəcəli məsuliyyətli vəzifə tapşırılmışdı.***

*- Həqiqətən də, mən bu vəzifədə 1989-cu ildən başlayaraq 12 il işlədim.*

***- Sizin funksiyanıza nə daxil idi?***

*- Çox şey – radioaktiv elementlərin tədqiqi ilə əlaqədar olan bütün elmi məsələlər kompleksi, bu isə əslində bizim bütün nüvə elmimizdir, dinc məqsədlərlə oluna bilən bütün işləmələrdir.*

***- Siz öz elmi axtarışlarınıza da vaxt tapırdınız?***

*- Elm mənim həyatımdır. Mən, sadəcə onunla məşğul olmaya bilməzdim. Yeri gəlmişkən, məhz 1969-cu ildə mən əvvəlkilərdən əsaslı olaraq fərqlənən elementlərin yeni dövri sistemi üzərində işləməyə başladım.*

***- Əvvəlkinin nəyi çatmırdı? Siz hesab edirsiniz ki, Mendeleev nəsə düz etməyib?***

*- Siz nə deyirsiz? Mendeleyev dahi alim idi və bu, yeni sübutlar tələb etmir. Sadəcə bizim biliklərimizin horizontu genişlənmişdir. XIX əsrin bu böyük kəşfi yüz il sonra əlavələr və dəqiqləşmələr tələb edir.*

***- Yeni sistemi açmaq çətin idi?***

*- Təbii, bütün yeniliklərdə olduğu kimi. Mən çox mötəbər beynəlxalq simpoziumda çıxış etdikdən sonra hər şey asan getməyə başladı. Artıq iki il sonra mənim cədvəlim SSRİ Təhsil Nazirinin əmri ilə Mendeleev cədvəlinə əlavə kimi ölkənin ali məktəblərinin müəllimlərinin ixtisasartırma kurslarına daxil edildi. 1978-ci ildə mən dünyada neptunium kimyası üzrə yeganə olan monoqrafiyanı çap etdirdim.*

***- Sizin digər böyük kəşfləriniz də var. Axı siz ilk dəfə olaraq kimyaya***

***beşinci kvant ədədini gətirdiniz!***

*- Bəli.*

***- Əgər populyar dildə desək, bu, nə deməkdir?***

*- Populyar dildə alınmaz. Amma ümumi desək, bu, elementlərin atomlarını başa düşmək üçün yeni imkanlar açır və bu istiqamətdə işlər davam edir.*

***- İndi Bakıda sizin monoqrafiyanız üç dildə - Azərbaycan, ingilis və rus dillərində nəşrə hazırlanır. O, sizin cədvələ həsr olunub?***

*- Bəli, iş yenicə başa çatıb, siqnal nüsxəsini almışam. Onu özümlə evə götürəcəyəm (ABŞ-a – V.A).*

***- Sizin eviniz indi ABŞ-dadır?***

*- Dəqiq desək, mənim oğlumun evi Nevada ştatında Rino şəhərindədir. Mən indi orada yaşayıram.*

***- Necə oldu ki, siz ABŞ-a köçdünüz?***

*- Bu, olduqca uzun və yaxşı olmayan əhvalatdır, amma düşünürəm ki, hər şey yaxşı oldu. Yenidənqurmanın son illərində alimlərin hamısı üçün çətin idi. Mən artıq işləmirdim, sonra xəstələndim, çox ağır xəstələndim. Mənim oğlum Aleksandr geoloqdur, qızıl çıxarma üzrə mütəxəssisdir və o vaxt artıq ABŞ-da yaşayırdı. Əvvəlcə tək getdi, Nevadada yerləşən böyük firmaya işə dəvət aldı. Sonra onun həyat yoldaşı və qızı getdi. Qızının onda cəmi iki yaşı var idi. Sonra mən ciddi xəstələnəndə bizi də – məni və həyat yoldaşımı yanına çağırdı. Mən çox pis idim, məni demək olar ki, çiyinlərində apardılar. Orada, Nevadada əzizlərim məni ayağa qaldırdılar.*

***- Işdən ötrü darıxırsınızmı?***

*- Mən heç işləməkdən qalmadım. Xoşbəxtlikdən alim üçün bundan ötrü xüsusi status lazım deyil.*

***- Siz Bakıya monoqrafiyaya görə gəldiniz?***

*- O cümlədən. Ümumiyyətlə, mənim bakılı həmkarlarımla çox layihəmiz var. Mən xoş münasibətə və mənim çoxillik əməyimə yüksək qiymət verdikləri üçün onlara minnətdaram. Azərbaycan Milli Elmlər Akademiyasının fəxri doktoru diplomunun verilmə mərasimi məni olduqca həyəcanlandırdı.*

***- Və sonuncu sual, Abas müəllim. Yersiz saymayın, sizdə bu qeyri-adi soy adı hardandır?***

*- Eyb etməz, mən bu suala öyrəşmişəm. Əhvalat belədir. Çar vaxtında əksər azərbaycanlılara doğulduğu yerə uyğun soyadı verirdilər. Siz, axı bilirsiniz, Şıxlinskilər, Şəkinskilər, Kəngərlilər var – Şıxlı, Şəki, Kəngərli yer adlarından törəmə soy adları. Bizim bəxtimiz çox da gətirməyib. Yuxarıda dediyim kimi, biz Çaxırlı kəndindənik. Atam hesab etmişdi ki, "çaxırlı" soy adını daşımaq müsəlmana yaramaz və çay sözündən yaranan "çayxor" sözünü düşünüb tapmışdı. Çayxorski soy adı belə yarandı."*

Bu müsahibədən göründüyü kimi, həmvətənimiz dahi alim olduğu kimi, həm də təvazökar insan olmuşdur. Qeyd edim ki, onun atom reaktorları üçün kəşf etdiyi vakkuum qurğusu, əslində atom elminin və sənayesinin inkişafında müstəsna rol oynamış və böyük fəlakətlərə səbəb ola biləcək hadisələrin baş verməməsinə şərait yaratmışdır.

Əgər nəzərə alsaq ki, radiokimya sənayesində neptunium yalnız uran və plutoniuma uduzaraq əhəmiyyətli yer tutur və dünyada bu elementin əsas tədqiqatçısı məhz Abas Çayxorski olmuşdur, onda onun dünyaşöhrətli alim olmasına heç bir əlavə sübuta ehtiyac qalmır.

Kimyəvi elementlərin atomlarının xassələrinin daha yaxşı öyrənilməsinə imkan verən beşinci kvant ədədinin kimyaya gətirilməsi də Abas Çayxorskinin adı ilə bağlıdır. Məhz bu kvant ədədinin əvvəllər məlum olan dörd kvant ədədi ilə birgə istifadə olunması elementlərin atomlarının xassələrini daha dərindən öyrənməyə imkan verdi.

Abas Çayxorski Mendeleyevin elementlərin dövri sistemi cədvəlindən daha mükəmməl cədvəl tərtib etdi və bu cədvəl artıq dünya kimyaçılarına ən müasir və təkmil cədvəl kimi məlumdur.

Abas Çayxorskinin bu sahədə işlərinə qismən aydınlıq gətirmək üçün onun rusca çap olunmuş "Neptunium kimyası" monoqrafiyasının sırf kimyaçı alimlər, kimya fakültələrinin tələbələri üçün nəzərdə tutulan bir hissəsinin tərcüməsini verməyi vacib saydım.

"Sıra nömrəsi 93 olub, elementlərin dövri sistemində birbaşa urandan sonra yerləşən neptunium 5f- elementləri ailəsinə aiddir və Siborqun aktinoid hipotezinə uyğun olaraq onun üzərində yerləşən nadir torpaq elementi olan prometiumun analoqu olmalıdır. Lakin məlum olduğu kimi, öz kimyəvi xassələrinə görə neptunium nadir torpaq elementlərindən xeyli fərqlənir. Kimyəvi xassələrdəki fərqlər başqa 4f- və 5f- elementləri üçün də aşkar olunmuşdur. Bu səbəbdən də f-elementlərinin D.İ.Mendeleevin dövri sistemində mövqeyi mübahisəli oldu.

Nadir torpaq elementlərinin özünəməxsus xüsusiyyətləri nəzəri olaraq N.Bor tərəfindən ötən əsrin 20-ci illərinin əvvəllərində izah olunmuşdu. Sonralar bu vəziyyət çoxsaylı kristallokimyəvi, spektroskopik, maqnit və kimyəvi sübutlarla təsdiq olunmuşdur. Bu məlumatlar əsasında Qoldşmidt lantandan lutesiuma qədər olan elementlər qrupunu lantanoidlər adlandırdı. 5f-elementlərinin başlanğıcı N.Bor tərəfindən əvvəlcədən söylənməmişdi. O, hesab edirdi ki, altıncı dövrün əksinə olaraq yeddinci dövrün başlanğıcında nadir torpaq elementlərinə anoloji elementlər yoxdur. Bor ehtimal edirdi ki, 5f- elementləri toriumdan yox, çox güman ki, urandan sonra və ya urandan başlamalıdır. Fikrini onunla əsaslandırırdı ki, 5f- və 6d- elektronların əlaqə enerjiləri yaxındır və Th, Pa və U müxtəlif valent formalarına malik olmalıdır və ağır analoqları Zr, Ta və W kimi uyğun kimyəvi xassələrə malik olmalıdır. Odur ki, 30-cu illərdə, demək olar

ki, hamı tərəfindən qəbul olunmuşdu ki, Th, Pa və U tipik 6d- elementləridirlər. Təsadüfi deyil ki, 93-cü element olan neptuniumun axtarışları əvvəllər manqan filizlərində və preparatlarında dövri sistemin VII qrupunun elementi kimi axtarılırdı.

Qoldşmidt $ThO_2$ və $UlO_2$-nin strukturunun onun tərəfindən müəyyən olunmuş izomorfizminə və metalın atom radiusunun toriumdan urana keçdikcə azalmasına (5f- sıxılması) əsaslanaraq hesab edirdi ki, 5f- elementlər qrupunda başlanğıc element toriumdur və onları "toridlər" adlandırmışdı.

Efraim və Mesener La, Ce, Pr, Th, Pa, U duzlarının udulma spektrlərinin analizi əsasından xeyli sonra Zaxariazen 5f- lementlərinin kristallokimyası və kimyası haqqında əlavə məlumatlar əldə edərək (neptuniuma qədər daxil olmaqla) "torid" hipotezinin xeyrinə fikir söyləmişlər.

Lakin toriuma qədər bütün 5f- elementlərinin kimyası, kristallokimyası, maqnit və spektroskopik xassələrinin geniş tədqiqatlarının nəticələrinə malik olaraq belə nəticəyə gəlmişdir ki, bu sırada sıfırıncı element aktiniumdur və özünün aktinoid nəzəriyyəsini irəli sürmüşdür ki, bu da trans uran elementlərinin fiziki və kimyəvi xassələrinin tədqiqinə olduqca böyük fayda vermiş və çox böyük müsbət rol oynamışdır.

1949-cu ildə Qaysinski "aktinoid" hipotezini inkar edərək sübut etməyə can atmışdır ki, 4f- və 5f- elementlərinin kimyəvi xassələri prinsipial olaraq fərqlidir və onları yaxın analoqlar hesab etmək olmaz. Bu zaman o özünün "uranid – kürid" konsepsiyasını irəli sürür. Bu konsepsiya 7-ci dövrün 5f- elementlərini uranoidlərə və küridlərə ayırır və bunu transuran elementlərinin kimyəvi və fiziki kimyəvi xassələrinin hərtərəfli analizi ilə müşayət etdirir.

1965-ci ildə Peppard əməkdaşları ilə birlikdə 4f- və 5f- elementlərinin ekstraksiya xassələrini öyrənərək aşkar edir ki, mahiyyəti elementlərin sıra nömrəsindən asılı olaraq lantanoidlərin və aktinoidlərin paylanma sabitinin sıra üzrə monoton yox, hər birində dörd element olan qruplar üzrə monoton dəyişdiyindən ibarət olan "dəftər – effekt" mövcuddur.

Elə həmin ildə Fidels və Sikirski müəyyən etdilər ki, nadir torpaq elementlərinin parçalanma faktorunun elementin sıra nömrəsindən asılılığı qrup daxilində müəyyən qanunauyğunluq göstərir və sonra bunu "dabl-dabl-effekt" adlandırdılar.

Sonralar bu elementlərin digər xassələri öyrənilir və digər izahlar verilir.

1966-cı ildə V.K.Qriqoroviç dövrü sistem cədvəlinin müfəssəl matrisa formasını təklif edir. Hər qrupda elementlərin elektron konfiqurasiyasından asılı olaraq üç yarım qrup (a, b və c) ayrılıb, f- elementləri burda II-VIII qruplarda yerləşib.

1969-cu ildə V.İ.Spisin, A.D.Qelman və N.N.Krot yeddivalentli neptunium aşkar olunması ilə əlaqədar olaraq neptunium və plutoniumun dövri sistemin VII

və VIII qruplarında uyğun olaraq xüsusi yarımqruplarda yerləşməsi ideyasını təklif etdilər.

f- elementlərinin dövri sistemdə mövqeyi probleminə böyük diqqətə və ona xeyli işlər həsr olunmasına baxmayaraq, bu məsələ həllindən hələ çox uzaqdadır.

Həm "aktinoid", həm də uranid – kurid hipotezləri özlərinin böyük müsbət əhəmiyyətlərinə baxmayaraq, 2 dövrü tutan 28 f- elementlərini dövri sistemin xaricində verməyi təklif edərək, bununla da onları dövri qanundan ayırırlar. Bununla yanaşı, dövri sistemin bütün elementləri üçün xas olan kimyəvi xassələrdə ikinci dövriliyi də nəzərə almırlar. Cədvəlin matrisa forması elementlərin elektron konfiqurasiyasına və dövrdə ikinci dövriliyə kifayət qədər müfəssəl baxsa da, ikinci dövrilik hadisəsini nəzərə almır.

Bu kitabın müəllifinin f- elementlərinin kimyası sahəsində çoxillik tədqiqatları elementlərin dövri sisteminin yeni variantını təklif etməyə imkan vermişdir. O, simmetriya prinsipi və elementlərin kimyəvi xassələri və elektron konfiqurasiyaları üzrə olan məlumatların ekstropolyasiyası əsasında qurulmuşdur. Cədvəl uzun dövrlü sistem şəklində verilmişdir, 10 dövrdən və beş diaddan ibarətdir. Bütün dövrlərdə eyni elektron təbəqəsinə malik olan elementlər bir-birinin altında yerləşmişdir (s təbəqəli elementlər müstəsnalıq təşkil edir və onlar dövrlərin əvvəlində yerləşmişdir. d elementləri uyğun dövrlərin s və p elementləri arasında yerləşmişdir, f elementləri isə bu dövrlərin s və d elektronlarının elementləri arasında yerləşir.

Beşinci diadda (8s- yarımsəviyyə dolduqdan sonra) hər birində 18 elektron olan g təbəqələr əmələ gəlir. Dövrlərin əvvəllərində yerləşən və bir-birinin altında yerləşməyən elementlər analoqlar öz aralarında çəp xətlərlə birləşirlər. Belə ki, hidrogen Li ilə, Na, Mg kalium və Ca ilə və s.

Cədvəldən göründüyü kimi, element – analoqları birləşdirən çəp xətlərin sayı diaddan-diada keçdikdə artır. Bu, hər bir yeni element əmələ gələn növbəti diadda yeni yarımsəviyyənin dolması ilə əlaqədardır. Bir elektrona malik hidrogen litiumun və eyni zamanda vertikal üzrə hallogenlərin analoqudur. Həmin dövrdə helium neonun analoqu olub, amma beriliumla heç nə ilə əlaqədar deyil, yalnız oxşarlıq odur ki, onunla eyni elektron təbəqəsinə malikdir. Ikinci diadda p – yarımsəviyyənin əmələ gəlməsi ilə Be və Mg-un 2s- təbəqəsi dolur və bu elementlərin bütün dövrlərdə analoqları var. Bu dövrlərin Al, Si və digər elementləri yalnız vertikal üzrə analoqlara malikdir. Üçüncü diadda d- yarımsəviyyənin yaranması ilə uyğun olaraq yeni elementlər Sc və Y yaranır (hər bir xarici təbəqədə üç elektron olmaqla) və onların sonrakı dövrlərin hamısında analoqları var. Zr, Nb və bu dövrün digər elementləri yalnız vertikal üzrə analoqlara malikdir. Sonra dördüncü diadda f- yarımsəviyyənin dolması başlayır, nəticədə Ce və Th yaranır, onlar da əvvəlkilər kimi sonrakı dövrlərdə analoqlara malik olmalıdır. Beləliklə, dövri sistemin qurulmasında müəyyən

qanunauyğunluğun analoqlar xətləri qaydasının mövcudluğu diqqəti özünə çəkir.

Hər bir diadda sol tərəfdə elementin sıra nömrəsinin iki mislinə bərabər növbəti diadlarda analoqlar var (vertikal üzrə yox). Bu analoqlar öz aralarında çəp xətlərlə birləşir.

Bor və Tomson öz sistemlərində, həmçinin Na, Mg və K, Ca arasınada iki xəttlə və Rb, Sr, Y və Cs, Ba, La arasında üç xətlə analogiya olduğunu qeyd edirlər. Onlardan Th və Ce arasında analogiya yoxdur, onlar hesab edirlər ki, Lu, Hf, Ta, W və Ac, Th, Pa, U arasında analogiya mövcuddur. Bu nöqteyi-nəzərin Qaysinski, Y.İ.Mixaylenko və başqaları da müdafiə edir.

Hazırda toplanmış faktiki material bu elementlər arasında dərin analogiyaının olmamasını tamailə təsdiq edir.

Dördüncü diadın elementlərinin kimyəvi xassələrinin detallı analizi göstərmişdir ki, lantan və torium birbaşa analoqlar olmasa da, lantan öz sırasında olduğu kimi, torim da öz sırasında oxşar mövqe tutur. Litium da maqneziuma kalsium da ittriuma nəzərən eyni mövqe tutur və s. Odur ki, H, Li, Mg, Ca, Y, La, Th, Eth və 173-cü element cədvəldə xüsusi yer tutan elementlər kimi qalın xətlərlə ifadə olunmuş qəfəslərdə yerləşdirilmişdir və verilmiş dövrdə maksimum sayda elektronlara malik yeni element-analoqlardır.

Analoqlar xətləri qaydasına uyğun olaraq lantan Cs-Ba-La sırasında sonuncudur və onlardan sonra lantanoidlər adlanan yeni elementlər qrupunun 4f-yarımsəviyyəsi dolmağa başlayır. Buna oxşar olaraq Fr, Ra, Ac, Th sırasında toriumdan sonra torioidlər adlandırılması lazım gələn elementlərin 5f-yarımsəviyyələri dolmağa başlayır.

Təklif olunan dövri sistemin uzun dövrlü variantının qurulmasında diadların ikitəbəqəli struktur prinsipi qoyulmuşdur ki, bu zaman elektron konfiqurasiyalarının ikitəbəqəliliyi və elementlərin kimyəvi xassələrində ikinci dövriliyin yaranması tam təsvir olunur. Sistemdə dövrlər yox, ayrı-ayrı diodlar ayrılır və sərbəst qəfəslər əmələ gətirir. Diadlar eyni sayda elementlərə malik iki dövrdən ibarətdir və öz təbiətləri etibarı ilə konstruktiv olaraq ikitəbəqəlidir.

Analoqlar xətləri qaydası ayrı-ayrı diadları öz aralarında əlaqələndirir və burada bütövlükdə elementlərin dövri sisteminin ümumi inkişafını əks etdirir.

Sistemdə diadların iki təbəqəli quruluşu elementlərin kimyəvi xassələrinin ikinci dövriliyi ilə birbaşa əlaqədardır. İkinci dövrilik hadisəsi çoxdan müşahidə olunmuşdur və bir çox müəlliflər tərəfindən bir-birindən asılı olmayaraq tədqiq olunmuşdur. Bu hadisənin mahiyyəti ondan ibarətdir ki, D.İ.Mendeleyev cədvəlində qrupda vertikal boyunca hərəkət etdikdə elementlərin bir çox fiziki-kimyəvi xassələri monoton olmadan dəyişir və bu zaman əlavə dövrilik göstərir.

İkinci dövrilik hadisəsinin özünün mövcudluğu elementlərin dövri sisteminin qurulmasında əhəmiyyətli səbəbdir. Hər şeydən əvvəl bu, diadların ikitəbəqəli strukturunun mövcudluğu faktından çıxır. Məlumdur ki, Li – Ne, K-

Kr, Cs-Rn (cüt olmayan dövrlər) elementləri Na-Ar, Rb-Xe və Fr-118-ci element (cüt dövrlər) elementlərinə nəzərən daha yüksək ionlaşma potensial qiymətinə malikdir. Odur ki, cüt olmayan dövrlərin hamısında atomlarda xarici elektronlar nüvə ilə böyük əlaqə enerjisi ilə, cüt dövrlərdə isə az əlaqə enerjisi ilə əlaqəlidir. Bu güclər dəyişkən olaraq bütün elektron təbəqələrində özünü göstərir. Hələ E.M.Axumov təsdiq etdiyi kimi, sistemdə diadlar ayrı-ayrı tamamlanmış sərbəst vahidlərdir. Beləliklə, onların yaranması və tam dolması birbaşa dövrdə iki eyni, amma istiqamətləri ilə əks olan atom güclərinin başlanması və sonu ilə müəyyən olunur. Başqa sözlə desək, bir dövr dolduqdan sonra bir əlavə gücün hesabına sonrakı elektronların istiqamətlənməsi dəyişir və ikinci dövrün elementlərlə dolması başlayır ki, bu dövrün elementləri öz xassələrinə görə əvvəlki dövrün elementlərindən bir qədər fərqlənir, başqa sözlə, elementlərin kimyəvi xassələrində ikinci dövrilik əmələ gəlir.

Bu vəziyyət ona gətirib çıxarır ki, elementlərin xassələrinin əsas dövriliyi dövrün başlanğıcında yox, hər bir diadın başlanğıcında təkrarlanır.

Beləliklə, elementlərin fiziki və kimyəvi xassələrinin tərtibatında müəyyən rol oynayan, müntəzəm, qanunauyğun və ciddi istiqamətlənmiş təsirə malik konkret güc aşkar olunur. Onun təsiri bütün elementlərə aiddir. Uyğun olaraq o, elektronun nüvə ətrafında fırlanma qanuna uyğunluğuna, atomdan elektronun mexanikasına, başqa sözlə, kvant mexanikasına aiddir. Təbii olar ki, o, elektronun hərəkət koordinatları olan kvant ədədləri sırasında elektronun əlavə sərbəstliyi kimi qəbul olunsun. **Bu güc beşinci kvant ədədi adlandırılmışdır.** Elementlərin dövri sistemində neptuniumun mövqeyinin müəyyən olunması nəzərə alınmaqla 4f- və 5f-elementlərin kimyəvi xassələrinin təsnifatı birbaşa beşinci kvant ədədi anlayışı ilə əlaqədardır. Çünki o, həm 4f və 5f həm də digər elementlərin fiziki və kimyəvi xassələrində mövcud olan fərqləri əsaslandırmaq və aydınlaşdırmaq üçün istifadə olunmuşdur.

Məlumdur ki, elementlərin dövri sistemində ayrı-ayrı dövrlərdə atomlarda elektronların maksimum sayı belədir: 2, 8, 8, 18, 18, 32, 32 və s. eyni zamanda dörd kvant ədədinə əsaslanan Paulinin qadağa prinsipi atomda 2, 8, 18, 32 və s. elektronun olmasını tələb edir və işin əslində tələb olunur ki, elementlərin dövri sistemi bir təbəqəli olsun.

Odur ki, vəziyyətdən çıxmaq üçün üçüncü və dördüncü kvant ədədlərinə aid olan 3d- və 4f- elementlərini uyğun olaraq dördüncü və beşinci dövrlərdə yerləşdirmək lazım gəlirdi. Üçüncü dövrdə d- elementləri olmadığından hesab edilirdi ki, Pauli prinsipinə uyğun olaraq onda boş d- orbitlər var.

Beləliklə, Pauli prinsipi elementlərin dövri sisteminin qurulmasında ikitəbəqəli strukturun mövcudluğunun izahını vermir, həmçinin vertikal üzrə hərəkət etdikdə elementlərin xassələrində ikinci dövriliyi nəzərə almır. Məsələn, Na-Cl sırasında elementlərin daha möhkəm əlaqəsinə haqq qazandırmaq üçün fərz

edilir ki, birləşmə əmələ gələrkən bu elementlər boş d- qəfəslərinin akseptor xassələrindən istifadə edir.

Elementlərin kimyəvi xassələrinin dövriliyinin daha əsaslı izahı məqsədi ilə atomda elektronun əlavə sərbəstliyini ifadə edən beşinci kvant ədədinin mövcudluğu etimalı irəli sürülmüşdür (qeyd edək ki, bu ideyanın müəllifi və kimya elminə daxil edən həmvətənlimiz Abas Çayxorskidir – V.A).

Buna uyğun olaraq beş kvant ədədinə əsaslanan qadağa prinsipi irəli sürülmüşdür (Çayxorski qadağa prinsipi – V.A).

Beş kvant ədədini nəzərə alan dalğa funksiyası aşağıdakı tənliklə ifadə olunur.

$$E_{n,l}^{s,p} = A \cdot R_{n,l}(r)\, Y_{l,m}(\Theta, \varphi)\, \Sigma_s \left(\pm \frac{1}{2}\right) T_p \left(\pm \frac{1}{2}\right).$$

$R_{n,l}$ və $T_p$ – radial funksiyalar $Y_{l,m}$- sferik harmonikanın vuranı (riyazi vuran – V.A), $\Sigma_s$-spin funksiyası. Yeni prinsipə uyğun olaraq elektron təbəqələrinin dolması aşağıdakı ardıcıllıqla olacaqdır:

$+1s^2$, $-1s^2$ + $2s^22p^6$, $-2s^22p^6$, $+3s^23d^{10}\ 3p^6$, $-3s^23d^{10}\ 3p^6$, $+4s^24f^{14}\ 4d^{10}\ 4p^6$, $-4s^24f^{14}\ 4d^{10}\ 4p^6$, $+5s^25g^{18}5f^{14}5d^{10}5p^6$, $-5s^25g^{18}5f^{14}5d^{10}5p^6$ “+” və “-“ işarələri diadların yuxarı və aşağı dövrlərini ifadə edir. Pauli prinsipinə uyğun olaraq sistemdə növbəti dövr əvvəlki tam dolduqdan sonra öz vakantları ilə əmələ gəlir. Yeni prinsipə görə yeni diadın yaranması ilə birinci atomda hər iki dövrə aid olan, boş qəfəsli elektron təbəqələri pleyadası əmələ gəlir, başqa sözlə, bu elementlərdə bu diadın bütün elektronları üçün vakansiyalar yaranır. Lakin vakansiyaların dolması əvvəlcə bir dövrdə, sonra isə başqa dövrdə baş verir. Ayrı-ayrı hallarda kənaraçıxmalar mümkündür, xüsusən də beşinci kvant ədədinin dəyişməsi oktet elektron konfiqurasiyalarının əmələ gəlməsi zamanı baş verən molekullar əmələ gəlməsində.

Bütün hallarda yeni diadın yaranması sferik simmetriyaya malik s-təbəqəsinin dolması ilə müşayət olunur və yalnız bundan sonra yeni p-, d- və ya f-simmetriyaya malik digər elektron təbəqələrinin dolması mümkün olur. Beləliklə yeni simmetriya – kaynosimmetriya ilk baxışda verilmiş dövrdə inqlabi dəyişikliyin başlıca səbəbi kimi görünsə də, dövrdə və ya diadda uyğun yerdəyişmələr tələb edən, təyinedici deyil, sadəcə bu dövrdə s- təbəqəsinin mövcudluğunun nəticəsidir, amma əvvəlki dövrün elementlərinə nəzərən beşinci kvant ədədinin başqa qiymətinə malikdir. Başqa sözlə desək, beşinci kvant ədədi elektronun fiziki simmetriyasını dəyişmir, yalnız $p^6$ qapalı elektron təbəqəsindən sonra siferik simmetriyalı s- təbəqəsinin əmələ gəlməsini tələb edir. Məhz bu şəraitlərdə beşinci kvant ədədi atomlarda öz istiqamətini, işarəsini və radial yerdəyişməsini əməl edir.

Lakin riyazi nöqteyi-nəzərdən iş bir qədər başqa cürdür. Vaxtilə təklif olunan elektronun sərbəstliyinin spin dərəcəsi simmetriya (riyazi) anlayışını

genişləndirərək təmiz fəza kateqoriyasından daha ümumi, atomda elektronun xassələrini təsvir etməyə imkan verən kateqoriyaya çevirdi. Indi bu, kifayət deyil. Elektronun dövrdən dövrə keçdikcə istiqamətlənmə dərəcəsini nəzərə alan yeni, əlavə simmetriyanın daxil edilməsi tələb olunur. Göstərilən sərbəstlik dərəcəsi radial müstəvidə elektronun yerdəyişməsini nəzərə alsa da, eyni zamanda elektronun koordinat fəzasından kənarda da vəziyyətini xarakterizə edəcək.

Beşinci kvant ədədinin həqiqi təbiətini hələ müəyyən etmək lazımdır, əyanilik nöqteyi-nəzərindən isə qəbul olunur ki, müxtəlif dövrlərə aid olan elektronlara müxtəlif istiqamətlilik verir. Bu, son nəticədə elektronun enerjisini dəyişmədən orbital radiusların ziqzaqvari dəyişməsinə gətirib çıxarır. Belə istiqamətlənmə lazımdır ki, əvvəlki dövr tam dolduqdan sonra yeni dövrün yaranması və ardıcıl dolması üçün həndəsi və energetik şərait yaransın. Ümumilikdə desək, beşinci kvant ədədi verilmiş kvant diad daxilində nüvə ilə elektronun əlaqəsinin gücünün dəyişməsinin səbəbidir (diaddaxili keçid). Diaddan diada keçdikdə (diadlararası keçid) birləşmələrin davamlılığının dəyişməsi bir qədər mürəkkəbdir, çünki o, təkcə beşinci kvant ədədindən yox, başqa güclərdən də asılıdır.

Beşinci kvant ədədi elementlərin kimyəvi xassələrinə böyük təsir göstərir.

Dövrdən dövrə keçdikcə elementlərin ionlaşma potensiallarının dəyişməsinə uyğun olaraq müxtəlif dövrlərə aid olan elementlərin davamlılığının dövri dəyişməsi baş verir. Elektron təbəqələrinin dolması prosesində dövrdən-dövrə keçərkən beşinci kvant ədədi dəyişdiyindən bir elektron təbəqəsi daxilində xarici elektronların radial müstəvi üzərində istiqaməti dövri olaraq dəyişir ki, bu da elektronun nüvə ilə əlaqəsinin möhkəmlənməsinə və ya zəifləməsinə səbəb olur. Sonuncu vəziyyət atomların yaxınlaşması zamanı davamlı birləşmələr almaq üçün və ya verilən element üçün maksimum oksidləşmə dərəcəsi əldə etmək üçün lazım olan valent elektronlarının həyəcanlanmasını çətinləşdirən və ya gücləndirən əsas səbəbdir. Odur ki, bütün diadların birinci (cüt olmayan) dövrünə aid olan, nisbətən yüksək ionlaşma potensialına malik elementlər ya çətinliklə yüksək oksidləşmə dərəcəsi əldə edir və ya tamamilə belə oksidləşmə dərəcəsinə çatmır. Əksinə, cüt dövrlərin elementlərinin elektronları nüvə ilə zəif əlaqəli olduqlarından asanlıqla maksimum oksidləşmə dərəcəsi əldə edir, davamlı birləşmələr əmələ gətirir və geniş diapazonda valent formalarınl alır.

Ikinci və üçüncü diadların s- və p- elementlərinin birləşmələrinə baxışdan belə nəticə çıxarmaq olar ki, həqiqətən də, olduqca az kənaraçıxmalar olmaqla cüt dövrlərin elementləri nisbətən daha davamlı birləşmələr və daha yüksək valent formaları əmələ gətirir.

Elementlərin maksimum mümkün oksidləşmə dərəcəsinə çatması və onların birləşmələrinin davamlılığı məsələsi, həmçinin molekullarda antiəlaqələndirici elektronların sayından da asılıdır. Məlumdur ki, birləşmələrin energetik

davamlılığı atomda cütləşməmiş elektronların sayına uyğun olan maksimumdan keçir. Orbitdə elektronların sonrakı artımı onun tək və ya cüt dövrə aid olmasından asılı olmayaraq antiəlaqələndirici orbitalların əmələ gəlməsi hesabına birləşmələrin davamlılığının azalmasına gətirib çıxarır. Cütləşmiş elektronların sayı nə qədər çoxdursa, molekulun əlaqələrinin enerjisi də bir o qədər azdır, uyğun olaraq maksimum valentliyə çatmaq şansı da bir o qədər azdır.

Beləliklə, cüt olmayan dövrün verilən elektron təbəqəsinin qrupunun ikinci yarısının elementləri valent formalarının az müxtəlifliyini göstərməlidirlər və vertikal verilmiş qrup üçün maksimum mümkün olan oksidləşmə dərəcəsinə çatmayacaq və daha az davamlı birləşmələr əmələ gətirməlidir. Bunun əksinə olaraq cüt dövrün qrupunun birinci yarısının elementləri demək olar ki, maksimuma qədər mümkün olan bütün valent formalarını göstərəcək və davamlı birləşmələrə malik olacaqdır. s- və p- elementlərinə baxış, həqiqətən də, bu fikirləri təsdiq edir. d- elementlər olduğu halda da analoji mənzərəni müşahidə etmək olar.

f- elementlərinə gəldikdə, onların birləşmələrinin davamlılığının dəyişməsi azimutal kvant ədədinin daha böyük qiyməti ilə və elektron təbəqəsinin mürəkkəb qarışmış ($f^n$ $d^m$ $s^q$) tərkibi ilə əlaqədar olaraq çətinləşmişdir. Burada ən çətin məsələ hələ Bor tərəfindən əvvəlcədən söyləndiyi kimi, lantanoidlər qrupunun birinci yarısının elementləri üçün aşağı valent formalarının olduqca yüksək davamlılığıdır. Bununla belə, bizim təsəvvürlərimizdə f- elementlərinin dövri sistemdə vəziyyəti kənaraçıxma deyil və "o, D.İ.Mendeelevin cədvəlindən qovulmamışdır".

Lantanoidlər və aktinoidlər arasında ümumiliklər çoxdur. Bu sıraların elementlərinin kimyəvi xassələrinin oxşarlığı haqqında Siborqun 5f-elementlərinin kimyasının inkişafına əlverişli təsir göstərmiş aktinoid hipotezində yaxşı və ətraflı göstərilmişdir. Lakin beş kvant ədədinə əsaslanan bir araya sığmazlıq prinsipinə uyğun olaraq bu elementlər beşinci kvant ədədinin müxtəlif qiymətlərinə malik olur və odur ki, onların arasında dərin analogiya ola bilməz.

Beləliklə, s-, p- və d- elementlərinə oxşar olaraq f- elementləri diadda dörd hissəyə bölünmüşdür. Verilən elementin kimyəvi xassəsi onun dörd vəziyyətdən hansı birində olmasından asılı olaraq müəyyənləşdiriləcəkdir. İlk iki vəziyyəti tək və cüt elektron təbəqələrinin birinci yarısının elementləri tutacaqdır ($\pm s$; $\pm p^{1-3}$, $\pm d^{1-5}$, $\pm f^{1-7}$ və s.), ikinci iki vəziyyəti tək və cüt dövrlərin elektron təbəqələrinin ikinci yarısının elementləri ($\pm s^2$, $\pm p^{4-6}$, $\pm d^{6-10}$, $\pm f^{8-14}$) tutacaqdır **(şəklə bax)**.

Bu təsəvvürlərə görə, maksimum mümkün oksidləşmə dərəcəsinə çatmağa daha çox meyillilik, yuxarıda deyildiyi kimi, verilmiş diadın cüt dövrünün birinci yarımqrupuna aid olan elementlərdə, ən az isə tək dövrün ikinci yarımqrupuna aid olan elementlərdə olacaqdır.

| | La | Ce | Pr | Nd | Pm | Sm | Eu | Gd | Tb | Dy | Ho | Er | Tm | Vb |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4f | | 4 | 4 | | | | | | 4 | | | | | |
| | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| | | | | | | 2 | 2 | | | | | | 2 | 2 |

| | Ac | Th | Pa | U | Np | Pu | Am | Cm | Bk | Cf | Es | Fm | Md | No |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 5f | | | | | 7 | 7 | | | | | | | | |
| | | | | 6 | 6 | 6 | 6 | | | | | | | |
| | | | 5 | 5 | 5 | 5 | 5 | | | | | | | |
| | | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | ? | ? | ? | ? |
| | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| | | | | | | | | | | 2 | 2 | 2 | 2 | 2 |
| | | | | | | | | | | | | | 1 | |

**Şəkil. Diadda 4f- və 5f- elementlərin valent vəziyyəti və dörd mövqeyi**

Tək dövrün qrupunun birinci yarısında və cüt dövrün qrupunun ikinci yarısında yerləşən elementlər aralıq mövqe tutur. Şəkildə f- elementlərinin valent formaları verilmişdir. Göründüyü kimi, həqiqətən də, lantanoidlər öz valent formalarının böyük müxtəlifliyinə malik deyil, xüsusən də qrupun ikinci yarısında. Eyni zamanda aktinoidlər, xüsusən də qrupun birinci yarısı, demək olar ki, ehtimal olunan bütün valent formalarını və davamlı birləşmələr əmələ gətirməyə böyük meyillilik göstərirlər.

Neptuniumun kimyası yuxarıda ifadə olunan təsəvvürlərlə kifayət qədər uyğun gəlir. Neptunium 5f- elementləri ailəsinin birinci yarısında, dördüncü diadın cüt dövründə yerləşir. O beləliklə, maksimum mümkün olan valent formaları əmələ gətirməli və onun proanaloqu olan prometiuma nəzərən davamlı birləşmələr əmələ gətirməyə daha çox meyilli olmalıdır. Həqiqətən də, prometium yalnız oksidləşmənin üçvalentli vəziyyətini göstərdiyi halda, neptunium məlum olduğu kimi, beş valent forması əmələ gətirir və geniş diapazonda davamlı birləşmələr verir. Belə ki, prometium yalnız üçvalentli hallogenidlər – $Pm\ F_3$, $Pm\ Cl_3$, $Pm\ Br_3$ əmələ gətirir, neptunium isə demək olar ki, bütün valent formalarının hallogenidlərini əmələ gətirir: $N_pF_3$, $N_pCl_3$, $N_pBr_3$, $N_pJ_3$, $N_pF_4$, $N_pCl_4$, $N_pBr_4$, $N_pF_5$ və $N_pF_6$.

Yalnız aşağı valent formalarında daha davamlı birləşmələr verməli olan prometium yalnız üçvalentli oksihallogenidlər – $P_mFO$, $P_mClO$, $P_mBrO$ və $P_mJO$ əmələ gətirir. Neptunium isə yüksək oksidləşmə dərəcələrində davamlılıq göstərməyə meyilli olduğundan dördvalentli $N_pOCl_2$, $N_pOBr_2$, beşvalentli $N_pOF_3$ və altıvalentli $N_pO_2F_2$ oksihallogenidlər əmələ gətirir. Neptunium üçvalentli oksihallogenidlər əmələ gətirmir.

5f- elementləri ailəsində neptunium uran və plutonium arasında yerləşir. Bu sırada elementlərin kimyəvi xassələrin müqayisəsi bir halda başlıca artan və ya azalan əyri ilə digər halda ziqzaqvari xətlə (dəftər effekti) təsvir olunur.

Neptunium hallogenidləri və oksihallogenidləri tərkibinə görə uranın duzlarına, alınan birləşmələrin sayına görə plutoniuma yaxındır. Ayrı-ayrı valent formalarının birləşmələrinin məhlullarda davamlılığına görə neptunium uran və plutonium arasında aralıq mövqe tutur. Belə ki, uran məhlulda altı valentli, neptunium beşvalentli, plutonium dördvalentli vəziyyətdə daha davamlıdır. Uran daha çox, neptunium bir qədər az sayda oksidlər əmələ gətirirlər, plutonium isə yeganə davamlı $PuO_2$ oksidi əmələ gətirir.

Aktinoid elementlərin davamlılıq sabitlərinin qiymətləri həmişə onların nadir torpaq elementləri üçün uyğun olan qiymətlərindən böyükdür ki, bu da f-elementləri sahəsində ikinci dövriliyin tələbləri ilə yaxşı uyğunlaşır".

Yuxarıda verilən tərcümə bir neçə cəhətdən maraqlıdır. Əsas odur ki, neptunium kimyasına həsr olunmuş bu yeganə monoqrafiya Moskvada 1978-ci ildə nəşr olunmuşdur və dünyanın aparıcı elmi mərkəzləri tərəfindən yüksək səviyyəli əsər kimi qəbul edilmişdir. Digər tərəfdən, Abas Çayxorski dünya miqyasında qəbul olunan N.Bor, Qoldşmidt, Siborq, Pauli, D.İ.Mendeleyev kimi alimlərin ideyalarını, hipotezlərini, prinsiplərini ciddi təhlil etmiş, çatışmazlıqlarını göstərmiş, özünün daha mükəmməl ideyasını irəli sürmüşdür. O öz ideyasını təkcə nəzəri mühakimələrlə yox, apardığı çətin və çoxsaylı təcrübələrinin nəticələri ilə əsaslandırmışdır.

Abas Çayxorskinin təklif etdiyi sxem əsasında xüsusi vakuum qurğusunun yaradılması uran-qrafit tipli reaktorların təhlükəsiz istifadəsini təmin etmiş və bunun nəticəsində nüvə tədqiqatları sahəsində daha uğurlu nəticələr əldə edilmişdir.

Belə olan halda, birmənalı olaraq həmvətənlimiz Abas Çayxorski dahi bir alim olaraq qəbul edilməlidir. Biz onunla Bakıda görüşdük, çoxlu söhbətlərimiz oldu, onun seminarlarını təşkil etdim, televiziya verlişlərində birgə çıxış etdik, onun təklif etdiyi elementlərin yeni dövri sistemi cədvəlinə aid kitabının əlyazmasını rus dilindən Azərbaycan dilinə tərcümə etdim. Bütün bu proseslərdə onun geniş dünyagörüşünün, fantastik yaddaşının, analitik təfəkkürünün, böyük məsuliyyətinin, sadəliyinin, vətənpərvərliyinin şahidi oldum. Bu görüşlərim həyatımın ən gözəl anları kimi hər zaman məni müşayət edəcək.

Qeyd edim ki, 1997-ci ilə qədər Abas Çayxorski Rusiya Federasiyasında yaşayıb və 1997-ci ildə ABŞ-a, Nevada Ştatına, oğlunun yanına köçüb. Lakin onun ABŞ-a köçməsi də asan olmayıb. O, vətəndaşlığını dəyişmək haqqında ərizə verdikdə (onun 80 yaşı var idi və ağır xəstələnmişdi) Rusiya Federasiyasının xüsusi xidmət orqanları onun SSRİ dövründə gərgin, halal əməyi ilə əldə etdiyi bütün elmi adları, titullarını, həmçinin öz elmi istiqaməti sahəsində heç bir ölkədə danışmamaq və tədqiqat aparmamaq haqqında rəsmi razılıq sənədi almışlar. Bununla da, keçmiş SSRİ-nin tarixi boyu qoyduğu qanunlarda olduğu kimi, şəxsiyyətlərin, hətta dünyanın qəbul etdiyi şəxsiyyətlərin obyektiv motivasiyalı

qərarına məhəl qoymadan, haqsız olaraq, onların hər şeyini əlindən aldığı kimi, Rusiya Federasiyası da Abas Çayxorski kimi böyük xidmətləri olan bir şəxsiyyəti elmin tarixi səhifələrindən silmək istəmişdir.

Belə ədalətsizliyin faciəsini yaşamaqda olan alimlə görüşməyimizə xoş bir təsadüf səbəb oldu. Hələ 1969-1973-cü illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində kimya fakültəsində oxuyarkən mənə kimyadan dərs demiş və bu gün də dostluq etdiyim, şəxsiyyətinə böyük hörmət bəslədiyim professor Telman Ağdamski məni 2003-cü ildə Bakıya qohumlarını görməyə gələn Abas Çayxorski ilə tanış etdi. Çox qısa müddətdə Abas müəllimlə böyük dostluğumuz yarandı. Bəstəboy, nurani, çox sadə, amma əzablı tale yaşamış böyük alimin həyat tarixini öz dilindən öyrəndim. Onun həyat hekayəti məni çox ağrıtdı, düşündüm ki, nə üçün bizim ulularımızın, dahilərimizin, müdriklərimizin ömür payına bu qədər çox əzab, əziyyət, ədalətsizlik düşüb.

Abas Çayxorskinin həyat tarixi haqqında elmə gəlməyimdə mənə himayədarlıq etmiş, hər zaman dayaq olmuş görkəmli alimlər, akademiklər – Musa Rüstəmov və Məhərrəm Məmmədyarova məlumat verdim. 2003-cü ilin payızında üçümüz Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik Mahmud Kərimova təqdimat yazdıq və təklif etdik ki, Abas Çayxorski Akademiyaının fəxri doktoru seçilsin.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyyətinin 3/3 nömrəli 26 yanvar 2004-cü il tarixli protokolu ilə Abas Çayxorski AMEA-nın fəxri doktoru seçilmiş və 5 nömrəli diplom təntənəli olaraq ona təqdim edilmişdir.

Abas Çayxorskinin yuxarıda təqdim etdiyim müsahibəsində qeyd olunmuşdur ki, onun üç dildə monoqrafiyası çapa hazırlanır. Lakin bu işi sona çatdıra bilmədik. Buna səbəb o, oldu ki, ölkəmizdə 2004-2007-ci illərdə olan nəşriyyat imkanları Abas müəllimin tələblərinə uyğun gəlmirdi. Nəticədə, o qərara aldı ki, kitab ABŞ-da çap olunsun. Lakin amansız ölüm onun bu istəyinin icrasına imkan vermədi.

Həmişə vətən sevgisi ilə yaşayan Abas müəllim, ölümündən əvvəl, onu Bakıda dəfn etməyi vəsiyyət etmişdi.

Abas Çayxorski 2008-ci ilin avqustun 27-də ABŞ-da vəfat etdi və onun nəşinin külü, öz istəyinə uyğun olaraq, Bakının köhnə qəbristanlığında dəfn edildi. Qəbri nurla dolsun, ruhu şad olsun!

Çalışacağam ki, onun son əsərini oğlunun razılığı ilə çapa hazırlayım. Bu mənim mənəvi borcumdur. Abas Çayxorski şəxsiyyəti qarşısında, Vətən qarşısında mənəvi borcum.

Kimya üzrə mütəxəssis olanlar üçün Abas Çayxorskinin açıq elmi mətbuatda nəşr olunmuş əsərlərinin siyahısını verməyi məqsədəuyğun hesab etdim. Əlavə olaraq onu da qeyd edim ki, 1949-1985-ci illərdə Abas Çayxorskinin 96 elmi və texnoloji elmi işi qapalı elmi ədəbiyyat kimi çap olunmuşdur və yalnız

Rusiya Federasiyasının qapalı elmi ədəbiyyatları arxivində saxlanılır. 1948-1955-ci illərdə Kurçatovun rəhbərliyi ilə apardığı əsas elmi işlər aşağıdakılardır:

**Atom sənayesinin baş rəhbəri akademik Kurçatovun rəhbərliyi altında atom sənayesində uran-qrafit nüvə reaktorunun sənaye təhlükəsizliyi üzrə işlər:**

**1. Uran reaktorunda qrafitin temperaturundan: üfürülən qazda oksigenin miqdarından; üfürülən qazın sürətindən asılı olaraq yaranması;**

**2. İndustrial nüvə qrafitinin gücdən şüalanma prosesində zamandan və nüvə reaktiv şüalanmadan asılı olaraq dağılma dərəcəsini tədqiq etmək.**

**3. SSRİ-də təhlükəsiz sənaye uran – qrafit reaktorunun yaradılması problemi üzrə Dövlət layihəsinin yaradılması üzrə baş rəhbər kimi fəaliyyəti.**

**4. Plutonium istehsal edən nüvə reaktorunda qrafitin yanması və fiziki dağılmasının analitik təyini üsullarını işləyib hazırlanmışdır: a) şüalanma vaxtından asılı olaraq; b) şüalanma enerjisinin gücü və qüvvəsindən asılı olaraq.**

**5. Plutonium istehsalının radioaktiv tullantılarından və şüalanmış neptunium -237-dən neptunium -237-nin və plutonium -238-in ayrılması və təmizlənməsi üzrə texnaloji proseslərin işlənib hazırlanması, "Neptunium-237-nin ayrılması üzrə texnoloji proseslərin və istehsalatda neptunium və plutoniumun analizi üsullarının təkmilləşdirilməsi.**

## İstifadə edilmiş ədəbiyyat:


1. Б.М.Кедров. Прогнозы Д.И.Менделеева в атомистике. Неизвестные элементы. М.: Атомиздом, 1977, 264 с.
2. Михаил Беленький. Менделеев. Москва, Молодая гвардия, 2010, 471 с.
3. Развитие учения о валентности. Москва, Химия, 1977, 248 с.
4. А.А.Чайхорский. Химия нептуния. Москва, Атомиздат, 1978, 216 с.
5. Джон Бэрроу. История науки в знаменитых изобратениях. Москва, ЭКСМО, 2014, 384 с.
6. Большая Российская энциклопедия. 19. Москва, Научная издательство «Большая Российская энциклопедия», 2012, 766 с., С.600, 720-722.
7. Большая Российская энциклопедия. 25. Москва, Научная издательство «Большая Российская энциклопедия», 2014, 764 с., С.689-692.

*В.М.Аббасов, М.М.Аббасов, А.М.Тагиева, Г.Х.Алиева*

**Экскурс в историю создания периодических таблиц элементов в связи со 150 летием открытия периодической системы Д.И.Менделеева и истины Абаса Чайхорского**

**РЕЗЮМЕ**

Статья посвящается жизни и деятельности выдающегося ученого Азербайджана Абасу Чайхорскому, его научным заслугам и представленной им новейшей периодической таблице.

*V.M.Abbasov, M.M.Abbasov, A.M.Tagiyeva, G.H.Aliyeva*

**Lawuey to the history of creation of periodic table of elements in counection with 150th anniversary of the discovery of the periodic system of D.I.Mendeleev and the truths of Abas Chaykhorsky**

**SUMMARY**

The article is dedicated to prominent scientist of Azerbaijan – Abas Chaykhorsky's life and activity, his works in science and the newest periodic table presented to chemistry by him.

**Açar sözlər:** dövrü sistem, dövri qanun, radiokimya, orbital, kvant ədədi

**Ключевые слова:** периодическая система, периодический закон, радиохимия, орбиталь, квантовое число

**Key words:** periodic system, periodic law, radiochemistry, orbital, quantum number.